# Azərbaycan turizm ölkəsinə çevrilir

**Müsahibimiz Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyevdir.**

**– Fuad müəllim, bildiyimiz kimi, pandemiya digər sahələrdə olduğu kimi, dünya turizminə də çox ziyan vurdu. Hazırda ölkəmizdə turizmin və-ziyyəti necədir?**

– Bu ilin başlanğıcından dünya turizmində olduğu kimi, ölkəmizdə də bu sahədə canlanma hiss olunur. Belə ki, 2022-ci ilin yanvar–noyabr aylarının ötən ilin eyni ayları ilə müqayisədə 2,1 dəfə artım var. Bu, ilin əvvəlində proqnozlaşdırılan bərpa prosesinin tam süründə getdiyini göstərir.

Bilirsiniz ki, 2019-cu ildə Azərbaycana gələn xarici ziyarətçilərin sayı 2018-ci illə müqayisədə 11,3 faiz artaraq 3,17 milyon nəfərə, xərclədikləri məbləğ isə 11,6 faiz artaraq 3 milyard manata çatmışdı. Hazırda əsas məqsədimiz bu rəqəmləri ən qısa müddətdə bərpa edərək, əvvəlkindən də çevik inkişafa və artıma nail olmaqdır.

Bu ilin 11 ayının göstəricilərinə əsasən, Azərbaycana səfər edən xarici vətəndaşlar içərisində ilk yerlərdə ardıcıl olaraq Rusiya, Türkiyə və İran gəlir. Sonrakı sıralamada Səudiyyə Ərəbistanı, Gürcüstan, Hindistan, Pakistan, BƏƏ, Qazaxıstan və digər ölkələr növbələşir. Türkiyə, Səudiyyə Ərəbistanı, Hindistan üzrə bərpa göstəriciləri 90 faizdən çoxdur. Belarus, Pakistan, İordaniya kimi ölkələr isə 2019-cu il nəticələrini üstələmişlər. Əlbəttə, bizim hədəfimiz 2019-cu ilin göstəricilərinin bərpasıdır.

Bildirməliyəm ki, xarici turizmin və daxili turizmin inkişafı bizim üçün eyni dərəcədə əhəmiyyətlidir. Hədəfimiz turizm sənayesinin istər xarici turistlərin ölkəmizə gətirilməsi, istərsə də daxili turizm xidmətlərinin təkmilləşdirilməsi istiqamətində aktiv və səmərəli fəaliyyətini təmin edəcək əlverişli mühitin formalaşmasına dəstək verməkdir.

Dekabrın 8-də keçirilən Azərbaycan Turizm Sammitində biz xarici və daxili turizm üzrə növbəti 4 ilə hesablanmış hədəflərimizi açıqladıq. Belə ki, növbəti 4 il üçün turizmin hərtərəfli inkişafına yönəlmiş 10 əsas təməl istiqamət üzrə hədəflər müəyyənləşdirilmişdir. Bu hədəflər həm də “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial iqtisadi inkişaf Strategiyası”nda nəzərdə tutulan məqsəd və tapşırıqların icrasına istiqamətlənib. Əsas məqsəd Azərbaycanı dayanıqlı, əlçatan və keyfiyyətli turizm destinasiyasına çevirməkdir.

Hədəfimiz 2026-cı ildə Azərbaycana səfər edən əcnəbilərin sayını 4 milyon nəfərə, ölkə daxilində turizm səfəri edən yerli vətəndaşların sayını isə 6 milyon nəfərə çatdırmaqdır. Hesab edirik ki, 2026-cı ildə cəmi turizm xərcləmələri 2021-ci illə müqayisədə 4 dəfə artaraq 11,2 milyard manata çatacaq, bunun da 49 faizi, yaxud 5,5 milyard manatı əcnəbi turistlərin payına düşəcək. Ümumilikdə isə 2026-cı ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorunda ÜDM istehsalı 2019-cu illə müqayisədə 1,5 dəfə artacaq, orta hesabla hər il turizm sektorunda 20 faiz artım qeydə alınacaqdır.

**– Dövlət Turizm Agentliyi yarandıqdan sonra ölkə turizminin rebrendinqi və digər layihələr həyata keçirilib. 2018-ci ildən bəri turizm sahəsində daha hansı yenilikləri qeyd edə bilərik?**

– Ölkəyə daha çox turistin gəlməsinə və Azərbaycanın beynəlxalq səviyyədə tanınan turizm destinasiyasına çevrilməsinə nail olmaq Dövlət Turizm Agentliyi yarandığı gündən əsas məqsədimizdir.

Ölkə rəhbərliyi, şəxsən cənab Prezident İlham Əliyev turizmin inkişafına daimi diqqət göstərir. Biz də Dövlət Turizm Agentliyi olaraq bu etimadı doğrultmağa çalışırıq, turizmin ölkə iqtisadiyyatının aparıcı sahəsinə çevrilməsi və bütövlükdə, turizm sənayesinin inkişafı istiqamətində işlər görürük. Görülmüş işlər içərisində hədəf ölkələrdə turizm nümayəndəliklərinin açılışı, beynəlxalq sərgilərdə intensiv iştirak, beynəlxalq təşkilatların tədbirlərinin ölkəmizdə təşkili Azərbaycanın tanıdılması istiqamətində atılan uğurlu addımlar olub.

Bu ilin əvvəlində turizm sahəsinin hüquqi-institusional tənzimlənməsi istiqamətində mühüm addım atılaraq, yeni Turizm qanunu qəbul edildi. Burada Turizm reyestri, mülki məsuliyyət sığortası, otellərin ulduzlaşması və digər bir sıra vacib məqamlar öz əksini tapır. Bu da bütövlükdə, ölkədə turizmin dayanıqlı inkişafını təmin etmək və beynəlxalq turizm bazarında Azərbaycanın rəqabət qabiliyyətinin artırılmasına yönəlib. Turizm sektorunda tənzimləmə çərçivəsinin inkişafı üçün mehmanxanalara münasibətdə ulduzların tətbiqi, turizm şirkətlərinə münasibətdə mülki məsuliyyət sığortası mexanizminin tətbiqi nəzərdə tutulur.

Dövlət Turizm Agentliyinin tabeliyindəki qoruqlarda mövcud olan mədəni irsin qorunması, oradakı tarixi abidələrin mühafizəsi və qoruqları turistlər üçün cəlbedici məkana çevrilməsi qarşıya qoyulan əsas məqsədlərdəndir. Bildiyiniz kimi, 2019-cu ildə cənab Prezidentin tapşırığı ilə “Yanardağ” Dövlət Tarix–Mədəniyyət və Təbiət Qoruğunda əsaslı təmir, rekonstruksiya işləri aparıldı, müasir turizm infrastrukturu quruldu.

Daha sonra, ötən il dövlət başçısının iştirakı ilə Palçıq Vulkanları Turizm Kompleksinin təməlqoyma mərasimi keçirildi. Hazırda orada tikinti-quraşdırma işləri layihəyə uyğun şəkildə davam etdirilir. Bu il “Diri Baba” türbəsi və “Basqal” Dövlət Tarix-Mədəniyyət Qoruğu əsaslı yenidənqurma və bərpa işlərindən sonra turistlərin ixtiyarına verildi.

Həmçinin, Şəki şəhərinin tarixi hissəsini əhatə edən “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğunda bir neçə tarixi binanın təmir-bərpası həyata keçirilir. Dekabrın 2-də cənab Prezident və birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şəki Xan məscidi kompleksində aparılmış bərpa işləri ilə tanış oldular. Həmçinin, Dövlət Turizm Agentliyi tərəfindən “Yuxarı Baş” Milli Tarix-Memarlıq Qoruğu ərazisində Qala divarları daxilindəki iki abidədə – Rəsm Qalereyası və qoruğun inzibati binasında aparılan təmir-bərpa işləri və şəbəkə emalatxanası ilə tanış oldular.

Qeyd etməliyəm ki, əlavə olaraq, bir sıra tarixi tikililərin əsaslı təmiri, abadlıq işlərinin aparılması və digər işlər UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilən Şəkinin tarixini qorumaqla turizm potensialını inkişaf etdirməyə yönəlib.

Digər bir qoruğun – Xınalığın tarix və etnoqrafiya baxımından əhəmiyyəti nəzərə alınaraq, oradakı evlərin təmir və bərpa işləri mərhələli şəkildə icra olunmaqdadır. Bu ilin fevralında “Xınalıq Mədəni Landşaftı və Köç yolu” adlı nominasiya sənədini hazırlayaraq, UNESCO-nun Ümumdünya İrs Siyahısı üçün təşkilatın Dünya İrs komitəsinə təqdim etmişik.

Bir neçə gün əvvəl biz 3 dildə fəaliyyət göstərən “Turist çağrı-məlumatlandırma mərkəzi”ni istifadəyə verdik. İlk dəfə tətbiq edilən 848 çağrı mərkəzinə yerli və xarici turistlər zəng vuraraq turizm xidmətləri ilə bağlı onları maraqlandıran məlumatları əldə edə bilərlər.

Bütün görülən işlərin davamlı təşkili üçün turizm sektorunda bacarıqlı insan resurslarının olması vacibdir. Dövlət Turizm Agentliyi tabeliyində olan Azərbaycan Turizm və Menecment Universiteti-



nin, Mingəçevir Turizm Kollecinin, Bakı Turizm Peşə Məktəbinin institusional imkanlarının gücləndirilməsi istiqamətində müvafiq kömək göstərmişdir.

**– Azərbaycanın turizm potensialı çox genişdir. Bu potensial əsasən, hansı turizm növlərini inkişaf etdirməyə əsas verir?**

– Ölkəmizin geniş, zəngin və çeşidli turizm potensiali bizə müxtəlif turizm məhsullarını formalaşdırmağa imkan yaradır. Azərbaycanın sahib olduğu çoxsaylı turizm imkanlarından yararlanaraq, mədəni, təbiət, sağlamlıq, əyləncə, qastronomiya və s. istiqamətlərdə maraqlı və fərqli məhsullar üzərində işləyirik. Bunların arasında qədim ənənələrə əsaslanaraq şərabçılıq turizmini, gözəl təbiətini əsas götürərək hayking təcrübəsini, Qusar, Qəbələ və Naxçıvanda qış turizm imkanlarını, alman, yəhudi irsi üzrə mədəni turizmi, Naftalan və Duzdağ kimi unikal sağlamlıq mərkəzləri üzrə sağlamlıq turizmini, qoruqlarımızda turizm əhəmiyyətli mədəni-tarixi irs yerlərini, son dövrlərdə müasir turizm trendləri arasında populyarlıq qazanan aqroturizm və ornitoloji turizm kimi bir sıra istiqamətləri sadalamaq olar.





**– Turizm sahəsi üzrə beynəlxalq əlaqələrdə prioritet istiqamətlər hansılardır? Hansı ölkələrlə sıx əməkdaşlıq edirik?**

– Turizm sahəsində bir çox ölkələrlə əməkdaşlıq əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Əməkdaşlığın əsası kimi, müxtəlif dövlətlərlə müqavilə-hüquq bazasının inkişaf etdirilməsi məqsədilə sazişlər, müqavilələr, anlaşma memorandumları bağlanılır. Bu mənada İsrail Turizm Nazirliyi ilə mart ayında imzalandığımız əməkdaşlıq haqqında sazişi qeyd edə bilərəm. Bildiyiniz kimi, ötən ildən İsraildə Azərbaycanın rəsmi turizm nümayəndəliyi fəaliyyətdədir və ikitərəfli turizm əlaqələrimiz inkişaf etməkdədir. İqtisadi və strateji amillərlə yanaşı, xalqlarımız arasında mədəni-tarixi və qarşılıqlı dostluq münasibətləri də turizm əlaqələrimizin inkişafına öz töhfəsini verir.

Bundan başqa, may ayında Şamaxıda keçirilən Türk Dövlətləri Təşkilatının turizm nazirlərinin 7-ci görüşündə müzakirə olunan “Müasir İpək Yolu” turizm marşrutu çərçivəsində birgə turizm məhsullarının yaradılması üzrə Özbəkistan, Qırğızıstan və Qazaxıstanla əməkdaşlıq perspektivlərini qeyd etmək olar. Bu baxımdan Gürcüstanı da nümunə göstərmək olar. Çin, Yaponiya, İndoneziya, Malayziya, ABŞ və Kanada kimi ölkələrdən, eləcə də bəzi Avropa dövlətlərindən daha çox uzunmüddətli səyahətə üstünlük verən turistlər üçün Azərbaycan müəyyən birgə turizm məhsulları və turlar təqdim edə bilər. Əlbəttə, bu məhsulların birgə marketinqinin aparılması, hədəf bazarlarda təbliğ edilməsi də əməkdaşlıq predmetlərindəndir. Bu istiqamətdə də müvafiq işlər davam etdirilir.

Eyni zamanda, Türkiyə, Rusiya, Yaxın Şərq ölkələri ilə də müxtəlif istiqamətli əməkdaşlıqlar aparırıq. Bu yaxınlarda Yaponiya ilə Anlaşma Memorandumunun imzalanması planlaşdırılır.

Bundan əlavə, Ümumdünya Turizm Təşkilatı ilə əməkdaşlıq əlaqələri genişlənməkdədir. Ölkəmiz bu mötəbər təşkilatın beynəlxalq tədbirlərinə artıq bir neçə dəfə evsahibliyi edib. Onu da vurğulamalıyam ki, 2023–2027-ci illər üçün ÜTT-nin İcraiyyə Şurasına üzv olmaq üçün Azərbaycanın namizədliyini irəli sürmüşük. Bu haqda, həmçinin bir sıra digər əməkdaşlıq istiqamətləri haqqında da noyabrın 18-də Ümumdünya Turizm Təşkilatının baş katibi Zurab Pololikaşvili ilə Madriddə baş tutan görüşümüzdə müzakirələr aparmışıq. Qeyd etməliyəm ki, bu ilin aprel ayında baş katibin Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevlə görüşmüşdü.

Zurab Pololikaşvili cənab Prezidentlə olan görüşün əhəmiyyətini xüsusi vurğulamışdır. Eləcə də, bu il ilk dəfə keçirilmiş Gənclərin Turizm üzrə Qlobal Sammitinə Azərbaycan tərəfindən göstərilmiş maliyyə yardımı və bir sıra məsələlərdə Azərbaycanın iştirakını yüksək qiymətləndirmişdir.

**– Turizm sahəsinin inkişafında önəmli məqamlardan biri də müasir turizm infrastrukturunun mövcudluğudur. Ölkəmizdə bu sahədə xeyli işlər görülür. Hazırkı turizm infrastrukturu müasir tələblərə cavab verirmi?**



– Aydındır ki, müasir tələblərə cavab verən turizm infrastrukturunun mövcudluğu turizmin inkişafına təkan verən əsas amillərdən biridir. Bütövlükdə, ölkədə biznes mühitinin inkişafı və müxtəlif təşviq mexanizmlərinin tətbiqi turizm sektoruna investisiya qoyuluşlarını da sürətləndirib. Belə ki, 2010–2019-cu illəri əhatə edən 10 il ərzində yerləşdirmə fəaliyyəti istiqaməti üzrə əsas kapitala 700 milyon manatdan artıq investisiya qoyulub, nəticədə mehmanxana və mehmanxana tipli müəssisələrin sayı 134 ədəd, nömrələrin sayı 9 min 50 ədəd, birdəfəlik tutum isə 18 min ədəd artıb.

Qeyd edim ki, dövlət başçısının fərmanı ilə 2017-ci ildən Turizm və Rekreasiya zonalarında mehmanxana, iaşə və əyləncə xidməti obyektlərinin tikintisi, eləcə də digər ərazilərdə hostel və 2–3 ulduzlu mehmanxanaların tikintisi layihələrinə investisiya təşviqi sənədinin verilməsi təmin olunub. Bu sənədlə 7 il müddətinə fiziki şəxslərin gəlirinin və hüquqi şəxslərin mənfəətinin 50 faizini vergidən, əmlak və torpaq vergisindən, texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalının gömrük rüsumlarından və ƏDV-dən azad edilib.

İqtisadiyyatın digər sahələri kimi, turizmdə də tələb və təklif mütənasibliyi əsas rol oynadığından bu sahədə birbaşa dövlət tənzimlənməsi mövcud deyil. Dövlətin bu istiqamətdə strategiyası bazarda təkliflərin sayının artması üçün əlverişli şərait yaradaraq, sağlam rəqabətlilik mühitinin formalaşmasına dəstək verməkdən ibarətdir.

**– Dövlət Turizm Agentliyi tərəfindən daxili turizmin inkişafı necə qiymətləndirilir?**

– Daxili turizm hər zaman prioritet istiqamət olub. Pandemiya beynəlxalq turizm bazarının bütün iştirakçılarının daxili turizm imkanlarını da məhdudlaşdırmışdı. Buna baxmayaraq, Azərbaycanda pandemiya dövründə də daxili turizm öz aktuallığını saxlamışdır.

Ötən ilin sonundan etibarən daxili turizmin bərpasında və inkişafında müsbət irəliləyişin olduğunu deyə bilərik. Hazırda da, xüsusilə, yay mövsümü ilə əlaqədar regionlara səfərlərin sayında artım müşahidə olunur. Bizim üçün önəmli məqamlardan biri yalnız yay mövsümü üçün deyil, digər fəsillərdə də bu dinamikanı saxlamağa və turizmdə mövsümiliyin aradan qaldırılmasına nail olmaqdır.

Turizmin bərpası fonunda biz bu il daxili turistlərin sayında keçən illə müqayisədə 30 faizdən çox artımın olacağını proqnozlaşdırırıq.

**– Qarabağın turizm potensialının istifadəsi üzrə hansı tədbirlər görülür?**

– Qürurla deyə bilərəm ki, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad edilməsi Dövlət Turizm Agentliyi qarşısında yeni vəzifələr qoyub. Bu vəzifələrdən biri Qarabağın turizm destinasiyası kimi inkişaf etdirilməsidir. Turizm bu istiqamətdə aparıcı sahələrdən biri olacaq.

Son iki il ərzində DTA tərəfindən Qarabağın və Şərqi Zəngəzurun turizm potensialının öyrənilməsi, müvafiq olaraq konsepsiya sənədləri və layihələrin hazırlanması həyata keçirilib. Bu baxımdan, 3 əsas istiqamət üzrə işlər icra olunub. Bunlar mövcud və yeni turizm və rekreasiya zonalarının yerlərinin dəqiqləşdirilməsi, nəqliyyat dəhlizləri boyu, eləcə də tematik turizm marşrutları üzrə turizm imkanlarının dəyərləndirilməsidir.

Həmçinin, artıq bir neçə layihənin icrasına başlanmışdır. Bildiyiniz kimi, bu ilin mart ayında Suqovuşanda cənab Prezidentin iştirakı ilə turizm kompleksinin təməlqoyma tədbiri baş tutdu. Bu kompleks Suqovuşan su anbarı ətrafında infrastruktur və xidmətlərin yaradılması, qəsəbənin rekreasiya imkanlarının artırılması və aktiv turizm fəaliyyətlərini özündə əks etdirən “Suqovuşan Turizm İnkişaf Konsepsiyası” sənədi əsasında yaradılacaq. Eyni zamanda Ağdamda tarixi Şahbulaq qalası ətrafında turizm imkanlarının qurulması üzrə layihə hazırlanaraq, ilkin rekreasiya infrastrukturu qurulmuşdur. Bundan əlavə, DTA tərəfindən “Qarabağ Zəfər Marşrutları” konsepsiyası çərçivəsində “Yolumuz Ağdama”, “Füzuli və Xocavəndə” birgünlük turların layihəsi hazırlanıb, Şuşa şəhərinin və Daşaltının turizm inkişaf planı hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Bütövlükdə, Füzuli, Xocavənd, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcərin turizm imkanların qiymətləndirilməsi aparılaraq, işğaldan azad edilmiş ərazilərdə turizmin inkişafı ilə bağlı Regional Turizm Strategiyası və Fəaliyyət Planının layihəsi hazırlanıb.

Yaxın günlərdə Şuşaya turizm səfərlərinin təşkili üçün işlərimizi yekunlaşdırmaq üzrəyik. Artıq vətəndaşlarımız digər yerlərə olduğu kimi, Şuşaya da turizm səfərləri edəcəklər. Bir sözlə, Qarabağın turizm potensialının öyrənilməsi, reallaşdırılması, tanıdılması üçün çoxistiqamətli tədbirlər icra olunur.

*Müsahibəni qələmə aldı:*
***Zərifə BƏŞİRQIZI,***
***“Xalq qəzeti”***

